**Hossein Morteza oğlu Bahrami**

**UOT:339.1; JEL: Z19.**

# İran İslam Respublikasının ixrac potensialının artirılması

***Xülasə***

*Məqalədə İran İslam Respublikasının (İİR) ixrac potensialının artırılmasından bəhs olunur. Müəllif, İranın ixrac potensialının xüsusiyyətlərini, ölkənin xarici iqtisadi əlaqələrini, İranın iqtisadi perspektivlərini öyrənərək müasir şəraitdə İranın rolunun getdikcə daha əhəmiyyətli olması qanaətinə gəlmişdir.*

***Açar sözlər**: İranın iqtisadiyyatı, xarici ticarət, idxal-ixrac əməliyyatları, ixrac potensialı, İrana qarşı sanksiyalar, xarici iqtisadi siyasət, qeyri – neft ixracatı.*

## Giriş

Dünya praktikasında, bir qayda olaraq, ölkələr ixrac potensialının genişləndirilməsinə əlverişli şərait yaratmaq baxımından iqtisadiyyatda islahat aparmaq üçün təkliflər hazırlayırlar. Ölkənin ixrac potensialını müəyyən edən ən vacib amillərdən biri ölkədə müqayisəli üstünlüklərin olmasıdır. Əgər erkən mərhələlərdə torpaq, əmək, kapital kimi istehsal amilləri önə çıxmışdısa, hazırkı inkişaf mərhələsində ölkənin iqtisadi inkişaf üçün lazımi şərait yarada bilmə qabiliyyəti həlledici rol oynayır. Belə ki, İran İslam Respublikası (İİR) torpaq və ucuz işçi qüvvəsi kimi bir sıra müqayisəli üstünlüklərə malik olmaqla yanaşı, kapital kimi bir amilin yetərli olmaması ilə xarakterizə olunur. Digər bir müqayisəli üstünlük, yüksək təhsil və peşəkarlığı olan ucuz işçi qüvvəsidir. Bu baxımdan, İranın ixrac potensialının artırılmasının öyrənilməsi əhəmiyyət daşıyır.



## İran İslam Respublikasının iqtisadi inkişafı və ixrac potensialının təhlili

Son on il ərzində İranın iqtisadi inkişaf strategiyasını təhlil etsək görərik ki, əslində İran neft və neft məhsulları ixracatından asılılıq səviyyəsini birdəfəlik azaltmaqla daxili bazara etibar etməyi təmin edən sanksiyalar ("müqavimət iqtisadiyyatı") şəraitində inkişaf etməkdədir. Mövcud beynəlxalq sanksiyaların inflyasiya komponentinə və respublika iqtisadiyyatına təsiri hökuməti sosial aspekti vurğulamaqla "müqavimət iqtisadiyyatı" siyasətini aparmağa məcbur etdir. Bu məqsədlə aparılan kurs özünü təmin etmə, idxalın əvəzlənməsi, daxili bazarın və milli istehsalçıların qorunması, o cümlədən müavinət və subsidiyaların verilməsi yolu ilə maksimum dərəcədə artırılmasına davam edir. 2017 və 2018-ci illərdə iqtisadi artım 3,8 %-ə qədər yavaşladı, çünki artan neft hasilatının birdəfəlik təsiri itdi. ÜDM-in artımı 2016-2017-ci illərdə son rekord həddə - 13,4 %-dən 2018-ci ilin martında başa çataraq ildə 3,8 %-ə düşdü. Keçən illər orta illik artım 2,1 %-dən yüksək olaraq qalır[7].

**Şəkil 1.**

**İİR-da real ÜDM artımı**




**Mənbə:** İran Mərkəzi Bankı (Central Bank of Iran -CBI) məlumatları və Dünya Bankı (World Bank) heyətinin hesablamaları.

© Hossein Morteza oğlu Bahrami AMEA İqtisadiyyat İnstitutu, dissertant
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2017-2018-ci illərdə kənd təsərrüfatının artımı 3,2 %- qədər azaldı, xidmətlər ən çox ümumi böyümə hesabına 2,1 % təşkil etdi (Şəkil 1). Əvvəllər sanksiyalar tətbiq edildikdə, ÜDM-in ümumi artımında böyük həcmdə azalmalara baxmayaraq, xidmət sektorlarının artımı davam etdi, çünki burada likvid aktivlərin daşınmaz əmlaka keçməsi baş verdi və firmalar ehtiyat yığmağa başladılar. 2018-ci ilin birinci rübündə real ÜDM artımı illik 2,7 % böyümə ilə müqayisədə bir il əvvəl 4,6% -dən aşağıya (1,7% -ə qədər qeyri-neft ÜDM-in artımı) nisbətdə illik 1.8 %-ə qədər yavaşladı. İran iqtisadiyyatının quruluşu olduqca müxtəlifdir. ÜDM-in strukturunda ən böyük hissəni xidmət sahələri tutur (təxminən 50%), mədən və sənaye - 41%, kənd təsərrüfatı sənayesi - 9% [3]. "Trading economics" saytında yerləşdirilən statistik məlumatlara görə, 2019-cu ilin 4 noyabr tarixinə İİR-da idxal 16,3 milyard dollar, ixrac 29,3 milyard dollar  təşkil etmişdir [9]. İran Gömrük İdarəsinin verdiyi məlumata görə, 2015-2016-ci ildə İranın əsas xarici ticarət tərəfdaşları bu ölkələr olmuşdur: [10] Çin 7,2 milyard dollar, İraq 6,2 milyard dollar, BƏƏ 4,9 milyard dollar, Hindistan 2,5 milyard dollar, Əfqanıstan 2,5 milyard dollar. İranın ixrac strukturuna diqqət yetirək:

- ⇨ yanacaq və enerji məhsulları və minerallar - 62,3%;
- ⇨ sənaye məhsulları - 20,1%;
- ⇨ kənd təsərrüfatı xammalı və ərzaq məhsulları - 6,7%;

Əsas ixrac maddələri mayeləşdirilmiş propan və butan, xam neft, metanol, qara metallar, bitum, polietilen, karbamid, püstədir [2].İranın əsas idxal tərəfdaşları:  Çin (10,4 milyard dollar), BƏƏ (7,8 milyard dolla),  Cənubi Koreya (3,6 milyard dollar) Türkiyə (3 milyard dollar),İsveçrə (2,5 milyard dollar) təşkil edir. İran idxalının quruluşuna diqqət yetirək:

- ⇨ sənaye məhsulları - 69,6%;
- ⇨ kənd təsərrüfatı xammalı və ərzaq məhsulları - 27,2%;
- ⇨ yanacaq və enerji məhsulları və minerallar - 3,1%.

Əsas idxal maddələri avtomobillər və digər motorlu nəqliyyat vasitələri, buğda, soya sprat, düyü, qarğıdalı, LCD panellər və LED panellər, arpa, telefonlar, qara metallardır [6]. 2015-ci ildə, 2013-cü ilin sentyabrından fəaliyyətə başlayan H.Ruhani hökuməti, ölkədə daxili iqtisadi vəziyyətin sabitləşdirilməsinə yönəlmiş tədbirləri davam etdirdi. Sanksiyaların erkən qaldırılacağını gözləmək İranın milli valyutasının sabitləşməsində və işgüzar fəallığın artmasında müsbət rol oynamalı idi. Mərkəzi Bank və İranın İqtisadiyyat və Maliyyə Nazirliyi daxili bazardakı vəziyyəti nəzarətə götürə bildilər. Bu, il ərzində inflyasiyanı tədricən azaltmağa imkan verdi. Nəticədə, 2015-ci ildə inflyasiya 15,1 %-ə düşdü. Aşağı böyümə və yüksək inflyasiya risklərini aradan qaldırmaq üçün BVF İrana büdcə kəsirinin azaldılmasına və inflyasiyanın aşağı salınmasına yönəlmiş sərt pul siyasəti yürütməyi tövsiyə etdi [6].

**Diaqram 1.**

**İrana mal ixrac edən əsas ölkələr (%)**




**Mənbə:** İran İslam Respublikası Gömrük İdarəsi (IRICA).



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İranın son dövrdə qeyri-neft ixracatının əsas hissəsini kənd təsərrüfatı və yüngül sənayə məhsulları təşkil edir. Bu məhsullar içərisində ənənəvi mallar (xüsusilə təzə və quru meyvələr), plastik material və üzvi kimyəvi maddələr daha yüksək çəkiyə malikdir. 2016-2017-ci illərdə kənd təsərrüfatı məhsulları qeyri-neft ixracatının təxminən 15 %-ni, sənaye malları isə 82 %-ni təşkil etmişdir (Diaqram 2). Xidmətlərə gəlincə, tikinti, nəqliyyat və səyahət xidmətlərində İranın ixracatı daha yüksək olmuşdur. Daşınma (yük və sərnişin) ixracı 2012-2013-cü ildən bəri səyahət ixracına (biznes və fərdi) nisbətən 2016-2017-ci illərdə azaldı.

**Diaqram 2.**

**Qeyri-neft ixracı məhsulları (ümumi qeyri-neft ixracatının % -i)**




**Mənbə:** İran İslam Respublikası Gömrük İdarəsi (IRICA).



Son zamanlarda İranın neft ixracının artmasının əsas hədəfi Avropa idi. Neft sanksiyalarından əvvəl, 2010 və 2011-ci illərdə İranın neft ixracatının təqribən 60%-i Asiya və Sakit okean, 34 %-i isə Avropa ölkələri olmuşdur. 2012-ci ildə neft sanksiyaları tətbiq edildikdən sonra Avropa ölkələrinin payı 75 % azalaraq, İranın ümumi neft ixracının 10 %-dən az oldu. 2016-cı ildə neft sanksiyaları ləğv edildikdə, İranın Avropaya neft ixracı 2015-ci ildəki 10 %-dən 2017-ci ildə 36 %-ə yüksəldi. 2017-ci ildə İranın xam neft ixracatında Avropa ölkələrindən Türkiyə (9 %), İtaliya (7 %) və Fransa (5 %) olmuşdu. 2018-ci ilin birinci yarısında İranın ümumi neft ixracatının 26 %-i Çinə, 23 %-i Hindistana edildi(diaqram 3).

**Diaqram 3.**

**İranın neft ixracat istiqamətləri (ümumi neft ixracatının % -i)**




**Mənbə**: Iran Economic Monitor **Qeyd:** Diaqram 2018-ci ilin ilk yarısı üçün məlumatları əks etdirir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İranın ən böyük ixracat destinasiyaları inkişaf etməkdə olan ölkələr olmaqda davam edir. Belə ki, Çin və Hindistana ixracat ən yüksək olaraq qaldı. 2011-ci ildə Çinin ixrac payı 22 % və 2017-ci ildə 26 % olmuşdur, Hindistanın ixracdakı payı 2011-ci ildəki 11 %-dən 2017-ci ildə 18 %-ə yüksəldi (Şəkil 4). İranın Avropa İttifaqı (AB) ilə ticarət balansı 2012-ci ildən bu yana mənfi olmuş, 2017-2018-ci illərdə 682 milyon ABŞ dollarına qədər azalmışdır.

**Diaqram 4.**

**İranın ixrac mallarının əsas destinasiyaları**




**Mənbə**: IMF DOTS.

Proqnozlara görə, analoji nümunələrin Avropaya ixracatın azalması ilə yenidən ortaya çıxması, Çinə ixracın sabit qalması ehtimalı var. İİR Ticarətin inkişafı təşkilatının rəhbəri Məhəmməd Rza Mudidi KİV-ə verdiyi müsahibədə İranın 15 qonşu ölkəyə mal ixracı ilə bağlı yeni strategiyasından bəhs etmişdir. Yeni tərəfdaşlıq, sanksiyalardan azad iş adamlarının qonşu ölkələrdə fəaliyyətlərini genişləndirməsi üçün ixracı artırmağa yönəlmişdir. Bu vaxt İranın uzun müddət ixrac etmədiyi Bəhreyn və Səudiyyə Ərəbistanı bazarları da aktuallaşacaq [3]. Rəsmi şəxslər İranın bu strategiyasının İraq, BƏƏ, Əfqanıstan, Türkiyə, Pakistan, Rusiya Federasiyası, Azərbaycan, Türkmənistan, Oman, Küveyt, Qətər, Ermənistan, Qazaxıstan, Bəhreyn və Səudiyyə Ərəbistanı, Hindistan və Çin istisna olmaqla, “2 + 15 ölkəyə” ixrac edilməsini söyləyirlər. İranın ixrac paketində bunlar da ciddi qəbul ediləcəkdir. İran iqtisadçıları hesab edirlər ki, ölkə sanksiyalar altındadır və malların gəmi ilə daşınmasında çətinliklər olduğu üçün İranın qonşu ölkələrə ixrac həyata keçirməsinin böyük əhəmiyyəti vardır. Bu sanksiyaların mənfi təsirlərini minimuma endirir. 15 qonşu ölkəni əhatə edən yeni ixrac strategiyasında əsas məqsəd, Sənaye, Mədən və Ticarət Nazirliyinin tövsiyələrinə əsasən digər ölkələrə, o cümlədən Hindistana və Çinə ixracı qorumaqdır. Əfqanıstanın İrandan idxalı 3 milyard dollar, ümumi idxalı isə 7 milyard dollardır. Əfqanıstan bazarının təxminən 42 %-i İranın nəzarətindədir, lakin İranın ixrac potensialını nəzərə alaraq bu rəqəm çox aşağıdır [1]. İranın 15 qonşu ölkə ilə xarici ticarətinin son vəziyyətinə dair araşdırma göstərir ki, İran iş adamları öz bazarlarından yaxşı istifadə edə bilməmişlər. 15 qonşu ölkədən idxal təqribən 11,8 milyard dollar, 15 qonşu ölkədən isə ixrac 13 milyard dollara yaxındır. Bu rəqəmləri nəzərə alsaq, İranın 15 qonşu ölkənin bazarından (qeyri-neft ixracat payı dünyadan idxal ilə müqayisədə) 2% -dir. İranın qonşu ölkələrlə tarixi əməkdaşlığına dair bir araşdırma göstərir ki, keçən il İranın 15 qonşu ölkəyə ixracının dəyəri ötən il ilə müqayisədə 3% müsbət dəyişikliklə 24.1 milyard dollar olmuşdur [1]. 15 qonşu ölkədən idxal ötən il 97 %-dən 23 %-ə qədər azalma ilə 11.5 milyard dollar təşkil etmişdir. Bu izahatlara görə, ötən il İranın qonşuları ilə ticarət həcmi 35,6%, ticarət balansı 12,6% təşkil etmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**İran İslam Respublikasının ixrac potensialının artırılması istiqamətləri**

İran hökumətinin ixrac prosesinə yardımı institusional islahatlar və resurslara nəzarəti əhatə etməlidir (biz bütün mümkün alətləri nəzərdə tuturuq: kredit, bank, lisenziyalaşdırma, sığorta, lizinq və digər xidmət infrastrukturunun yaradılması). Məsələn, ixracın həcmindən asılı olaraq mənfəət vergi dərəcəsini azaltmaq mümkündür. İxracatın genişləndirilməsi və stimullaşdırılması ilə bağlı proqram vəzifələrini irəli sürməklə yanaşı, onların həyata keçirilməsinin ilkin şərtlərini də təmin etmək lazımdır. Bunlar:

- xarici ticarətin tənzimlənməsi, xarici bazarlara çıxışı artırmaq üçün ticarət şərtlərinin yaxşılaşdırılması;
- maliyyələşdirmə infrastrukturu və xarici ticarət sığortası təmin edən ixracda inzibati və texniki maneələrin aradan qaldırılması.
- peşəkar korporativ idarəetmə ilə əlaqəli özəlləşdirmədən sonrakı problemlərin həlli, effektiv menecerlərin və yenidən hazırlanan kadrların cəlb edilməsi zərurəti.

İran dünya təbii qaz bazarındakı iştirakını genişləndirməyi qarşıya məqsəd qoymuşdur. Belə ki, İran 2021-ci ilə qədər Asiya və Avropa ölkələrinə ildə təxminən 80 milyard kubmetr qaz ixrac etməyi nəzərdə tutur. Eyni zamanda, 2019-cu ilədək Cənubi Pars qaz yatağının bütün fazaları istismara verildikdən və yalnız İrana məxsus və qonşu dövlətlərin ortaq olduğu digər qaz yataqlarının işlənməsindən sonra ölkənin qaz hasilatı gündə ən azı 1 milyard kubmetrə çatacaqdır[4]. İran hökuməti hazırda metallurgiya və mədən sənayesini gücləndirmək və modernləşdirmək üçün bir proqram həyata keçirir. Bu proqrama əsasən artıq 2025-ci ilə qədər İranın polad istehsalı müəssisələri tərəfindən polad istehsalı 55 milyon tona çatacaqdır ki, bunun da 47 milyon tonu birbaşa bərpa yolu ilə metal əritməsindən ibarətdir. Metallurgiya sənayesini lazımi xammal ilə təmin etmək üçün geniş imkanların yaradılması planlaşdırılır. İran hökuməti kənd təsərrüfatı sektorunu fəal şəkildə inkişaf etdirməyə və dəstəkləməyə davam edir. Respublikanın ərzaq təhlükəsizliyini təmin etmək üçün İranın Kənd Təsərrüfatı Nazirliyi, İranın Ticarət, Mədənlər və Sənaye Nazirliyi ilə birlikdə istehsalın səmərəliliyini artırmaq, yerli istehsalçıları qorumaq, ixracı stimullaşdırmaq və idxalı tənzimləmək məqsədi ilə dövlət siyasətini həyata keçirir. Enerji sektorunda mövcud obyektlərin yenidən qurulması və modernləşdirilməsi, bərpa olunan enerji mənbələrinin inkişafı və yeni elektrik stansiyalarının inşasına xüsusi diqqət yetirilir. Yeni enerji şəbəkələrinin qurulmasının iqtisadi cəhətdən mümkün olmadığı ucqar və əlçatmaz ərazilərdə yerləşən kənd yaşayış məntəqələrini elektrik enerjisi ilə təmin etmək üçün fotovoltaik panellər və günəş panelləri istifadə olunur. Respublika rəhbərliyi iqtisadiyyatın müxtəlif sahələrində innovativ texnologiyaların inkişafına xüsusi diqqət yetirir. Beləliklə, respublikanın perspektiv inkişafına dair strateji planda (2005-2025-ci illər) göstərilən məqsədlərə əsaslanaraq, 2025-ci ilə qədər İran müasir texnologiyalar sahəsində regional liderə çevrilə bilər [3].

Hesab edirik ki, siyasi və inzibati sistemdə ixrac maneələrini aradan qaldırmaq və İranın ixrac vəziyyətini yaxşılaşdırmaq üçün "İxracın İnkişafı üzrə Köməkçi" kimi bir qurum olmalıdır. Digər tərəfdən, hökumət müvafiq şərait yaratmaqla bölgədə yaranan siyasi gərginliyin azaldılmasına çalışmaqla siyasi dəhlizlər vasitəsilə hədəf bazarlara çata bilərlər [2]. Ümumiyyətlə, İranı yalnız coğrafi mövqeyi baxımından deyil, həm də nəqliyyat sisteminin inkişaf dərəcəsi baxımından Avropa ilə Asiya arasında strateji nəqliyyat dəhlizi kimi qəbul etmək olar. Bu baxımdan, İranın "Yeni İpək Yolu" adlanan layihədə iştirakçı mövqeyini nəzərdən keçirmək lazımdır. İranın sərhədlərinin perimetri boyunca, əsasən Fars körfəzi və Xəzər sahillərində yaratdığı azad iqtisadi zonalar (xüsusi iqtisadi zonalar) vasitəsilə İpək Yolu layihəsində iştirakı olduqca səmərəli ola bilər. Əslində İpək Yolu layihəsi çərçivəsində - Buşehr və Caskda rayonlarında iki yeni azad iqtisadi bölgə yaradılır. Caskda ikinci ən böyük qaz və neft ixracat terminalının (Hark terminalından sonra) yaradılması



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

planlaşdırılır. İranın maraqları Çinin Cənubi İpək Yolu layihəsinin bir hissəsi olaraq, İran və Orta Asiya ölkələri üzərindən çəkilməsi planlaşdırılan sürətli bir dəmiryolunun inşası planlarına uyğundur. Xatırladaq ki, yeni layihədə dəmir yoluna xüsusi əhəmiyyət verilir. Eyni zamanda, İran bölgədəki layihə nəticəsində Çinin təsirinin artacağını da nəzərə almalıdır. Çin İran üçün ilk növbədə İran neftinin alıcısı və potensial qaz alıcısı kimi vacibdir. Sanksiyalar dövründə belə, Çin ölkənin iqtisadiyyatının müxtəlif sahələri də daxil olmaqla İranın əsas investorlarından biri olmağa davam etdi. Çin İran biznes elitaları ilə fəal əməkdaşlıq edir, buna görə də, bir sıra ölkələr tərəfindən İrana tətbiq olunan sanksiyaların qaldırılmasından sonra Çin və Amerikan kapitalının təsir gücünə qarşı təsir kimi nəzərdən keçirilə bilər.

**Nəticə**

Dünyanın inkişaf etmiş ölkələrinin ixrac potensialının müasir xüsusiyyətlərinə görə formalaşması və inkişafının nəzərə alınması İran üçün təcrübi əhəmiyyət daşıya bilər. Beləliklə, istənilən ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətliliyini inkişaf etdirən model yalnız rəqabət qabiliyyətinin milli müəyyənləşdiriciləri tərəfindən müəyyən edilmiş üstünlüklərə əsaslanaraq xarici mühitin təsirinə uyğunlaşdırıldıqda uğurlu olacaqdır. Qərblə İran arasında münasibətlərin yaxşılaşdırılması tendensiyasının ortaya çıxmasından sonra ortaq iqtisadi layihələrdə nəzərə çarpan irəliləyiş oldu. BVF-nin hesablamalarına görə, İran iqtisadiyyatı yaxın gələcəkdə bəzi iqtisadi sanksiyaların qaldırılması və dünya birliyinin İranın nüvə proqramı ilə əlaqədar gərginliyinin azalması səbəbindən bərpa etməyə başlayacaqdır. Bununla yanaşı, iqtisadi sabitlik yaratmaq və investisiya cəlb etmək üçün İranın iqtisadi islahatlara ehtiyacı var. Əks təqdirdə yüksək inflyasiya və aşağı iqtisadi artım kimi tendensiyaların davam etməsi riski mövcuddur. Ümumiyyətlə götürdükdə isə, son illərdə dünya iqtisadiyyatının qloballaşması şəraitində İranın rolu və yeri getdikcə güclənməkdədir.

**Ədəbiyyat**


1. İranın yeni ixrac strategiyası 15 qonşu ölkəni hədəf alır (fars dilində), http://otaghiranonline.ir/news/29722
2. İixrac maneələrinin həlli (fars dilində), http://eco-dip.ir/2019/05/11/3-راهکار-برای-ع-موانع-صادراتی /
3. Ölkənin qeyri-neft ixracının böyüməsi və şaxələndirilməsi (fars dilində), http://www.tpo.ir/index.aspx?fkeyid=&siteid=1&pageid=701&newsview=8437
4. Qeyri-neft ixracatı və əsas maneələr, həll yolları (fars dilində), https://moqavemati.net/3099/موانع-اصلی-صادرات-غیرنفتی-و-راهکارهای/
5. Ambargo Sonrası İran Ekonomik ve Ticari Etki Analizi, https://www.deik.org.tr/uploads/ambargo_sonrasi_iran_ekonomik_ve_ticari_etki_analizi.pdf
6. Годовой обзор состояния экономики и основных направлений внешнеэкономической деятельности Исламской Республики Иран в 2015 году , http://91.206.121.217/TpApi/Upload/11ccf78c-b004-421e-aebe-9484a9469bdf/Economics_Iran_2015.pdf
7. Iran Economic Monitor, http://documents.worldbank.org/curated/en/676781543436287317/pdf/Iran-Economic-Monitor-Weathering-Economic-Challenges.pdf
8. Iran Population (LIVE), https://www.worldometers.info/world-population/iran-population/
9. Iran Imports, https://tradingeconomics.com/iran/imports
10. Islamic Republic of Iran's Customs Administration (IRICA)
11. Central Bank of Iran , https://www.cbi.ir/default_en.aspx
12. World Bank , https://www.worldbank.org
13. IMF DOTS, https://data.imf.org/?sk=9D6028D4-F14A-464C-A2F2-59B2CD424B85
14. László Csicsmann, STRUGGLING FOR A SUSTAINABLE ECONOMY: IRAN AFTER THE JCPOA, http://www.menaraproject.eu/wp-content/uploads/2019/03/menara_fn_19.pdf




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Хоссейн Мортеза Бахрами***

***Повышение экспортного потенциала Исламской Республики Иран***

***Резюме***

*В статье рассматривается экспортный потенциал Исламской Республики Иран. Автор, изучая особенности экспортного потенциала Ирана, внешнеэкономические связи страны, экономические перспективы Ирана, пришел к выводу, что роль Ирана в современных условиях становится все более важной.*

***Ключевые слова***: *экономика Ирана, внешняя торговля, импортно-экспортные операции, экспортный потенциал, санкции против Ирана, внешнеэкономическая политика, не нефтяной экспорт.*

***Hossein Morteza Bahrami***

***Increasing the export potential of the Islamic Republic of Iran***

***Summary***

*The article discusses the export potential of the Islamic Republic of Iran. The author, studying the features of Iran's export potential, the country's foreign economic relations, and Iran's economic prospects, came to the conclusion that the role of Iran in modern conditions is becoming increasingly important.*

***Keywords***: *Iran's economy, foreign trade, import-export operations, export potential, sanctions against Iran, foreign economic policy, non-oil exports.*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 11.03.2020.***
***Çapa qəbul olunub: 16.03.2020.***

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az